# Azərbaycan bu gün dünya miqyasında çox önəmli rol oynayan ölkə kimi özünü təsdiqləyib

***Bu gün bütün dünyada Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin uğurlu inkişafı etiraf edilir, Azərbaycanın təşəbbüsü və iştirakı ilə həyata keçirilən qlobal layihələrdən bəhs olunur, aparılan islahatların iqtisadiyyatın daha da güclənməsinə təkan verdiyi vurğulanır. Eyni zamanda, Azərbaycanın Mərkəzi Asiya və Xəzəryanı dövlətlər arasında iqtisadiyyatı ən sürətlə inkişaf edən bir respublika olduğu, investisiyanın təşviqi mexanizminin həyata keçirildiyi və əlverişli investisiya mühitinin yaradıldığı, təbii sərvətlərlə, xüsusilə neft və qaz ilə zəngin diyar kimi tanındığı diqqətə çatdırılır.***

***Xarici siyasətdə biz həmişə əməkdaşlığa üstünlük vermişik və bunun faydasını görmüşük. Harada imkanımız olubsa, kömək etməyə çalışmışıq və etmişik. Bizim bir neçə önəmli transmilli layihəmiz, məhz, bu prinsip əsasında qurulub və uğur da, məhz, bu prinsip əsasında qazanılır. Ona görə xarici siyasətdə qarşılıqlı dəstək sözdə yox, əməldə olmalıdır, həmrəylik əməldə olmalıdır.***

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Dövlətimizin başçısı ayrı-ayrı çıxışlarında, müsahibələrində Azərbaycanın hər zaman xarici ölkələrlə səmərəli əməkdaşlığa üstünlük verdiyini və bunun müsbət nəticələrlə müşahidə edildiyini diqqətə çatdırıb. Eyni zamanda, respublikamızın müxtəlif vaxtlarda yaxın-uzaq ölkələrə imkan daxilində kömək göstərdiyini də vurğulayıb. Prezident İlham Əliyev Bakının Nizami rayonunda yerləşən 3 saylı DOST mərkəzi ilə tanışlıqdan sonra Azərbaycan Televiziyasına müsahibəsində bu barədə deyib: “Bizim bir neçə önəmli transmilli layihəmiz, məhz, bu prinsip əsasında qurulub və uğur da, məhz, bu prinsip əsasında qazanılır. Ona görə xarici siyasətdə qarşılıqlı dəstək sözdə yox, əməldə olmalıdır, həmrəylik əməldə olmalıdır”.

Dövlətimizin başçısı sözügedən müsahibəsində Azərbaycanın dünya miqyasında çox böyük hörmətə və yüksək imicə malik ölkə kimi tanındığını, beynəlxalq tədbirlərdə müdafiə edildiyini, məhz elə buna görə də səkkiz il bundan əvvəl 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasına üzv olduğunu, Qoşulmama Hərəkatının yekdil qərarı ilə bu nüfuzlu quruma sədr seçildiyini xatırladıb.

Azərbaycanda son 17 ildə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilib, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilib. Başqa sözlə, avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, paytaxtda, habelə regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, respublikamızın tranzit potensialını daha da gücləndirib.

Dövlətimizin başçısı bununla bağlı Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında deyib: “Nəqliyyat təhlükəsizliyi təmin edilib. Azərbaycan Avrasiyanın önəmli nəqliyyat-logistika mərkəzlərinin birinə çevrilibdir və bizim fəal iştirakımızla Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri fəaliyyətdədir və deyə bilərəm ki, Şərq-Qərb nəqliyyat dəhlizi üzərində artıq iki qol mövcuddur. Biri Çin-Qazaxıstan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa, digəri isə Pakistan-Əfqanıstan-Türkmənistan-Azərbaycan-Gürcüstan-Türkiyə-Avropa. Hər ikisi Azərbaycan üzərindən keçir və təbii ki, bizim imkanlarımız da daha da genişlənir. Əgər biz Şimal-Cənub nəqliyyat dəhlizini nəzərə alsaq, bu da Şimali Avropa-Rusiya-Azərbaycan-İran-Hindistan ölkələrini əhatə edir. Deməli, təsəvvür etmək çətin deyil ki, bu sahədə də nəqliyyat təhlükəsizliyimizi təmin etmişik”.

Bu məqamda onu da vurğulayaq ki, Bakı-Tbilisi-Qars (BTQ) da region üçün strateji əhəmiyyətə malikdir, konteyner daşımaları, Avrasiyaboyu multimodal nəqliyyatın həcminin artırılması, Asiyadan Avropaya istiqamətlənən karqo axınları üçün rəqabətqabiliyyətli bağlantı təmin edir. Asiya və Avropa arasında ən qısa marşrutu reallaşdırmaqla BTQ dəmir yolu bağlantısı gələcəkdə bir neçə milyon ton karqo daşınmasının reallaşdırılması məqsədi daşıyır.

Qeyd edək ki, “Azərbaycan Dəmir Yolları” QSC-nin törəmə şirkəti olan “ADY Express” MMC BTQ dəmir yolu ilə artıq yeni növ yüklərin nəqlinə başlayıb. Bu dəfə şirkət Türkiyədən Azərbaycanın müxtəlif bölgələrinə yüklərin daşınmasına start verib.




Adı çəkilən MMC-nin məlumatına görə, “ADY Express” Türkiyə və Gürcüstandakı tərəfdaşları ilə birgə polad və plastmas boruları, beton dirəkləri Türkiyədən Azərbaycana nəql etməyə müvəffəq olub. 250 ton polad boru 26 yarımvaqonda Bakı-Tbilisi-Qars dəmir yolundan keçməklə Türkiyədən Gəncə şəhərinə daşınıb. 100 ton plastmas boru 11 platformaya yüklənərək Türkiyədən Şəmkirə nəql edilib. 600 ton beton dirək isə 10 yarımvaqonda BTQ vasitəsilə Türkiyədən Abşeron rayonuna çatdırılıb.

Bütün yüklərin çatdırılma vaxtı (tranzit vaxtı) 3 gün təşkil edib.

Yüklər Türkiyədən Gürcüstanın Axalkalaki stansiyasına çatdırılaraq burada vaqonlarda təkər arabacıqların dəyişdirilməsi əməliyyatından sonra Azərbaycana yola salınıb.

Bakı-Tbilisi-Qars dəmir yolu vasitəsilə bu növ yüklərin daşınmasının davamlı olacağı nəzərdə tutulub. BTQ dəmir yolunun yaratdığı imkanlar, yük sahiblərinə bu yolla məhsullarının daşınmasına şərait yaradaraq yüklərin nəqlini daha rahat, sürətli və təhlükəsiz edib.




Azərbaycan sözügedən dövrdə qlobal neft-qaz layihələrinin reallaşması istiqamətində də önəmli layihələrə imza atıb. Prezident İlham Əliyev avqustun 10-da Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda “Qarabağ” yatağının dayaq blokunun dənizə yola salınması mərasimindən sonra Azərbaycan Televiziyasına müsahibəsində bu barədə bildirib: “Əlbəttə, indi bizim əsas diqqətimiz Cənub Qaz Dəhlizinin başa çatmasına yönəldilib. Bu layihə də uğurla icra edilir. Bunun dördüncü və sonuncu layihəsi olan TAP artıq başa çatmaq üzrədir. Beləliklə, hesab edirəm ki, bir neçə aydan sonra Azərbaycan dövlətinin təşəbbüsü ilə və geniş-miqyaslı beynəlxalq əməkdaşlıq nəticəsində 3500 kilometr uzunluğunda olan, bir-birinə bağlı üç qaz kəmərinin inşası tam başa çatacaqdır və Azərbaycan qazı artıq Avropa məkanına çatdırılacaq. Beləliklə, Cənub Qaz Dəhlizi tam istismara veriləcək. Bu, bizim üçün çox önəmli və hesab edirəm ki, tarixi hadisədir. Çünki bu, imkan verir ki, “Şahdəniz” yatağının tam işlənilməsi təmin edilsin”.

Dövlətimizin başçısı daha sonra deyib ki, Cənub Qaz Dəhlizi inşa olunmadan investor bura və heç bir digər layihəyə vəsait qoymazdı, yaxud da tərəddüd edərdi. Çünki istər “Abşeron”, “Qarabağ”, istərsə də digər yataqlardan çıxarılacaq qazın ixracı üçün yol olmalıdır. Ona görə Cənub Qaz Dəhlizinin əhəmiyyəti təkcə “Şahdəniz” layihəsi ilə məhdudlaşmır. Bu layihə gerçəkləşdirilmədən Azərbaycanın enerji siyasəti yarımçıq qala bilərdi. Amma bu gün respublikanın enerji siyasəti ölkəmizin maraqlarını tam təmin edir: “Şahdəniz” yatağı ən azı yüz il bundan sonra Azərbaycanı və tərəfdaş ölkələri qazla təchiz edəcəkdir. Eyni zamanda, biz ixrac coğrafiyamızı genişləndirmək əzmindəyik. “Şahdəniz” qazı Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan və İtaliyaya çatdırılacaq. Əgər Albaniyada qaz şəbəkəsi yaranarsa, Albaniya da bizim təbii tərəfdaşımız olacaqdır, biz oraya da qaz ixrac edə bilərik. Digər qonşu ölkələrə – Balkan bölgəsində yerləşən ölkələrə Azərbaycan qazının verilməsi mümkündür”.

Buradan bir daha aydın nəzərə çarpır ki, Azərbaycan qlobal layihələr həyata keçirərkən, xarici siyasətdə qarşılıqlı dəstəyi təkcə sözdə yox, həm də əməldə, həmrəyliklə ifadə edir. Respublikamızın Avrasiyanın yeni enerji xəritəsinin tərtib olunmasında fəallığı və bir çox ölkələr üçün strateji tərəfdaş kimi böyük nüfuz qazanması, məhz bunun bariz ifadəsidir.

Onu da qeyd edək ki, indiyədək həyata keçirilən layihələr çərçivəsində Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərlərinin istifadəyə verilməsi nəinki Azərbaycanın və Türkiyənin, hətta digər ölkələrin enerji təhlükəsizliyinin təmin edilməsində müstəsna rol oynayıb.

Bütün bu uğurlar beynəlxalq reytinq təşkilatlarının qiymətləndirmələrində də öz ifadəsini tapıb. Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında dövlətimizin başçısı deyib: “Bu yaxınlarda BMT-nin “Dayanıqlı inkişaf indeksi” ilə bağlı yeni hesabatı işıq üzü görüb. Bu hesabatda Azərbaycan keçən ilə nisbətən irəliləyərək 54-cü yerdə qərarlaşıb. Hesab edirəm ki, bu, çox gözəl göstəricidir. Onu da bildirməliyəm ki, bu göstəriciyə görə Azərbaycan regionda liderdir. Baxmayaraq ki, ümumi daxili məhsul bir qədər aşağı düşüb, bu da təbii səbəblər üzündən baş verib. Bütövlükdə, ilin altı ayını müsbət qiymətləndirmək olar…”.

Davos Ümumdünya İqtisadi Forumunun son hesabatında isə yolların keyfiyyətinə görə Azərbaycan dünyada 27-ci, dəmir yollarının səmərəliliyinə görə dünyada 11-ci yerdə qərarlaşıb. Bütövlükdə isə həmin hesabatda nəqliyyat infrastrukturunun səviyyəsinə görə ölkəmiz dünyada 34-cü yerdə dayanıb.

Birləşmiş Millətlər Təşkilatının və “S&P Global Ratings” beynəlxalq reytinq agentliyinin məlumatlarında isə Azərbaycanın artıq iqtisadi cəhətdən azad ölkə olması bildirilib. Çünki respublikamızda əlverişli biznes, investisiya mühiti mövcuddur. Eyni zamanda, hökumət vergi gəlirlərində və kapital xərclərində, habelə milli valyutanın məzənnəsi ilə bağlı təsirli nizamlayıcı addımlar atmaqla mövcud valyuta ehtiyatlarının azalmasının qarşısını alıb. Bu isə liberal iqtisadi islahatların, düşünülən, elmi əsaslara malik inkişaf konsepsiyasının həyata keçirilməsi, siyasi iradə nəticəsində mümkün olub.

Yuxarıda qeyd olunanlar hazırda Azərbaycanın dünyada güclü və nüfuzlu dövlət, ictimai-siyasi sabitliyin, davamlı inkişafın təmin edildiyi respublika kimi tanındığını deməyə əsas verir. Ölkəmizin inkişafının, əldə etdiyi nailiyyətlərin əsasında isə dövlətimizin başçısı cənab İlham Əliyev tərəfindən uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət kursu dayanır. Bunun nəticəsidir ki, xalqımız dövlətimizin başçısının həyata keçirdiyi siyasəti birmənalı şəkildə dəstəkləyir, bu siyasətə alternativ görmür, əldə olunan uğurları yüksək qiymətləndirir.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***